Debüt

# ZƏİF GÜN İŞIĞINDA

## Hekayə

*Əziz Əsmər Hüseyn Xan qızı. Hiss olunur ki, gəncsən. Sənin təhsilin və ədəbi mühitlə əlaqələrin haqqında da məlumatım yoxdur. Bilmirəm, indiyə qədər ədəbi yazılarınla mətbuatda çıxış etmisən, ya yox. Çox güman ki, bu da olmayıb. Ancaq vaxtıdır. Sənin bir neçə şeirini və hekayəni sosial şəbəkədə oxumuşam. Tam səmimi deyirəm ki, sən sözün haləsindəsən. Təbii ki, sözə pərvanə kimi dolananları söz doğmalıqla qarşılayır. Bir sözlə, sən sözlə ünsiyyət qurmağın yolundasan. Həmişə deyirəm ki, söz sehrdir, ovsununu bilənə tərəf gələr. Tanrı bu ovsunu bilmək istedadını sənə bəxş edib, yaz, yarat.*

*Hekayəni isə oxudum. Bəzi məqamlar tam açılmır... Bütün hallarda sənin gözəl nəsr qələminin olduğuna inandım. Bu məni çox sevindirdi. Yaz, yarat.*

*İstedad və zəhmət qoşa qanaddı. Ruhuna xırda, cılız hissləri yaxın buraxmasan, bu qoşa qanad səni çox ucalara qaldıracaq.*

**Hörmətlə Əli Rza Xələfli.**
**27.12.2018**



Əl əsasını ancaq köhnə çarpayısına əyləşdikdən sonra əlindən buraxdı. Otaq yarıqaranlıq idi. Onsuz da zəif görən gözləri lap yaxındakını belə seçə bilmirdi bu işıqsız otaqda. Əlini döş cibinə atıb səliqə ilə qatlayıb cibinə qoyduğu qəzet parçasını çıxartdı. Eynəyini taxıb qəzet parçasındakı şəkilə baxdı. Yarışıqlı cavan oğlan tankın üstündə ayaq üstə dik dayanmış, işıldayan gözləri ilə düz onun gözlərinin içinə baxırdı. Tanıdı bu oğlanı. Yanılmamışdı ilk görəndə də tanımışdı əslində, həm eynəksiz olduğu üçün, həm də gecə qaranlığının tərəddüdlüyü idi... Düz 55 il... uzun zaman keçmişdi o gündən... bütün gənc oğlanlar kimi onun da arzusu əsgərliyə getmək, vətənin borcunu ödəmək, onun keşiyində dayanmaq idi. O gün gəlmişdi Qiyas o qədər həyəcanlı idi ki, yerə-göyə sığmırdı. Uzaqdan, yaxından eşidən, bilən Qiyasgilə axışırdılar. Kənddə birinin övladı əsgərliyə gedəndə, qonum-qonşu görüşməyə gələr, xeyir-dua verər, ata-anasını tək qoymazdılar. Tavat arvad da əli ayağına dolaşmış halda bu otaqdan o otağa var-gəl edirdi. Otaq boyu süfrə açmış, Qiyası deyib gələnlər hamısı süfrə başına yığışmışdılar. İndi otaqdan mətbəxə gələn ana nə üçün gəldiyini unudub bir an duruxdu. Geri qayıtdı süfrəyə nəzər yetirdi, birdən yadına düşdü:

- By Allah ağlımı alsın, az qala unutmuşdum təkrar geri qayıtdı. Dünən gecədən yatmayıb qonşu Məsmə arvad və onun gözəllikdə bərabəri olmayan Sarasıyla birlikdə min bir naxışla bəzədikləri şəkərburaları bükdüyü, süfrədən ehmallıca çıxartdı. Gözləri doldu. Qiyasın atasını xatırladı, - Allah sənə rəhmət eləsin, ay kişi - dedi, güclə eşidiləcək səslə - bax, oğlumuz böyüdü, indi əsgərliyə gedir. Eyni sənə bənzəyir, eyni sənin kimi yeriyir. Şəkərburanı da çox sevir sənin kimi. Torpağın sanı qədər yaşasın - deyib köks ötürdü. Sonra yenə bayaqkı qıvraqlıqla şəkərburaları tələsik qaba düzüb, içəri apardı. Burda səs səsə qarışmışdı. Hamı bir ağızdan «sağ-salamat get, sağ-salamat qayıt» - deyirdilər. Kəndin yaşlıları sözə «bizim zamanımızda ilə başlayıb, heyif o günlərdən» ilə bitirirdilər. Qiyasın gözü Saranı axtarırdı. Bu qızı lap uşaq yaşlarından özününküləşdirmişdi. Nədənsə qız da sözsüz-söhbətsiz tabe idi sanki baxışları ilə danışdığı oğlana. Kənd arvadlarının dilinə də düşmüşdü. Qız utandığından Tavat arvadla iki kəlmə kəsə də bilmirdi. İndi o, yox idi bu məclisdə utanıb yəqin, - dedi Qiyas özözünə. Gözünü açandan evlərinin divarındakı rəngi solmuş xalının üstündən asılmış qoşalülədən başqa silah görməmişdi. Onun da mərmisi yox idi. Bir də ata yadigarı olduğu üçün ona əl də vurmurdu. Sabah özünün silahı olacaqdı. Bu düşüncənin verdiyi qürur hissini heç bir sağlığa dəyişməzdi. Ansını titrək səsi ayıltdı onu dalğın xəyaldan. - Boyuna qurban olduğum, niyə fikirləşirsən, - deyib özü də kövrəldi.

- Yox, ay ana, nə fikri, sən mənə görə narahat olma, - deyib boynunu qucaqladı bu ömrünü ona həsr etmiş qadının. Qiyasın bu həyatda anasından başqa doğması yox idi. Nə bacısı, nə qardaşı, nə də atası... Heyif atasını 8 yaşı olanda itirmişdi. Birinciyə təzə başlamışdı, hələ atası onunla təzə-təzə fəxr edirdi. Kim bilir, hələ nə qədər fəxrlər yaşayacaqdı, ona ömür vəfa eləsəydi...

Hava yaman soyuq idi. Qarışdırırdı bu ayaları, qış idi çox güman ki... hansı aydır, hansı gündür bax, onu bilmirdi. Zəif gün işığı düşürdü otağın dar pəncərəsindən. Bir də baxdı şəkilə. O idi. 55 il əvvəlki o. Özü... müharibənin qızğın vaxtları geridə qalmışdı. Gedənlər gəlməmişdi. Şəhid olanlar dəfn olunmuşdu, amma Qiyasın nə özü gəldi, nə xəbəri. Beləcə yazıq arvadın gözləri qapıda, günləri il edib, Qiyas deyə-deyə tapşırmışdı canını. Bax, beləcə körpəikən onu atasından əcəl ayrı salmışdı - müharibə əcəli. Nə deyim bu taleyə, - dedi, kallaşmış, özünü güclə eşidiləcək səsiylə. İlik donduran şaxtalı qış gecəsində 4 əsgərlə postda dayanmışdılar. Qaranlığı yaran ay işığında silah-sursatlarını yerləşdirirdilər. Özlərindən başqa heç kim olmadığından narahat idilər. Hər dəqiqə başı ətrafa göz gəzdirirdilər: «Bu köpək oğlu ermənidən nə desən çıxar» - deyib tədbiri əldən vermirdilər. Birdən bir od parçası bir göz qırpımında qaranlığı yardı və düz onların yanında ağappaq parıldayan qara sancıldı. Qiyas gözünü açanda tək idi. Nə baş verdiyini anlamadı. İstədi ayağa qalxsın, hansısa güclü bir əl onu qalxmağa qoymadı və o, ağ-qırmızı xallı xalının üstündə yuxuya getdi. Əsirlikdə olduğu illəri yaddaşından silmək istəsə də, əslində, hər səhər yuxudan dik atılmalarının səbəbi bu idi.

İndi də ehhh, - dedi, başını buladı. Əlləri əsə-əsə çarpayısının qırağındakı stəkanı götürüb sudan içdi. Təqatədən düşmüşdü. İlləri bu dörd divarda keçmişdi. Çoxunun uçaraq getdiyi illər. Deməli, onu da axtarıblar, qəzetə elan veriblər şəklini. Yadındadı əsgərliyinin ikinci ayında qürurla çəkdirmişdi bu şəklini. Anasına yollamaq üçün. Tavat arvad bu şəkli əlinə alanda huşunu itirmişdi. - Boyuna qurban, ay bala, - demişdi hər şəklə baxanda.yazıq arvad da hər gecə şəkillə danışır, öpür, sığallayırdı. Evdə o şəklə yer də tapmırdı. Yenə sancdı ürəyi. Yenə gəlib durdu gözünün qabağında Saranın süzgün baxışları. Adəti üzrə arxası üstə uzandı cırıldayan çarpayısına. Elə bil dünya dayanmışdı. Səs-səmir gəlmirdi heç yerdən. Yenə sol tərəfi sancırdı. Anası düşdü yadına, lap onu son gördüyündən də cavan idi. Əlində bir sini şəkərbura. Gülümsəyirdi. Hardansa Sara da gəldi durdu arvadın yanında. Süzgün-süzgün baxdı ona.

...Yavaş-yavaş işıqlanırdı hava. Ancaq bu işıq Qiyasın pəncərəsindən otağına düşmədi. Bəlkə də düşdü, amma o yorğun qoca bu səhəri görmədi.

**Əsmər HÜSEYNXAN**